## AVADANLIĞIN BƏRKİDİLMƏSİ

- Konstruksiyalar və avadanlıq elə olmalıdır ki, üzərində su toplanmasın və buz yaranmasın.
- Güclü külək, hündür dalğalar, və şaxta/buzların düşməsi kimi pis hava şəraiti zamanı, ondan əvvəl və sonra xüsusi yoxlama tədbirlərini müəyyən edin.
- Bərkitmə avadanlığı, əlavə bərkidilmə üçün istifadə edilmiş takelaj və boşala bilən hər hansı avadanlıq üzərində əlavə yoxlamalar aparın.
- Külək konuslarını, külək sensorlarını, projektorları, antenaları, antena dirəklərini və skafold körpülərini yoxlayın.
- Vertolyot meydançasının yaxınlığındakı avadanlığın kifayət qədər bərkidilmiş olduğunu yaxşı yaxşı yoxlayın.
- Damlarda, yük daşıyıcılarında və bütün saxlama sahələrində bərkidilməmiş əşyaların olub-olmamasını yoxlayın.
- Əmin olun ki, saxlama qutularının qapaqları bağlanıb.

## BUZ VƏ QARIN YIĞILMASI

Konstruksiyalarda, qüllələrdə, damlarda və vışkalarda buz və qar yığıla bilər və insanlar və avadanlıq üçün ciddi təhlükəyə səbəb ola bilər:

- Konstruksiyalardan, keçidlərdən, pillələrdən, skafold taxtalarından və s. müntəzəm surətdə buzu və ya qalaqlanmış qarı təmizləyin.
- Əmin olun ki, yükləmədən əvvəl buz və qar konteynerlərin, sürüşdürmə özüllərinin, forklift yuvalarının və yüklərin başından təmizlənib.
- Buz lülələrini təmizləyin, xüsusilə də hava qızmağa başlayanda. Buz lülələrini qopartmaq mümkün olmayanda aşağıdakı sahəni iplə baryerləyin və xəbərdarlıq işarələri qoyun və üzərində buz salxımları olan sahələrdə durmayın.
- Bilin ki, keçidlərdəki buz günəş altında əriyib gedə bilər, lakin kölgədə isə buzlu qala bilər.
- Bilin ki, vibrasiya da buzu titrədib boşalda bilər.
- Pilləkanı heç vaxt birbaşa buz və ya buz lülələri ilə örtülmüş yerə dirəməyin, çünki pilləkanın ağırlığından buz ya buz lülələri qopa və düşə bilər.

# HAZIRLAŞIN
# QIŞ GƏLİR



GÖRÜN
ANLAYIN
TƏDBİR GÖRÜN
MƏLUMAT VERİN

## STATİSTİKA GÖSTƏRİR Kİ, QIŞ AYLARINDA ƏŞYALARIN DÜŞMƏ HALLARI XEYLİ ARTIR

- **Daha çox alət və bərkidilməmiş əşyalar düşür, çoxu da hava/ətraf mühit şəraitləri səbəbindəndir**
- **Buz və yağan qar konstruksiyaları həddindən artıq ağırlaşdırır, təhlükələri gizlədir və avadanlığın üzərini örtür**
- **Komponentlər, materiallar və avadanlıq donur**
- **Güclü küləklər konstruksiyalarda təzyiqi, gərginliyi və vibrasiyanı artırır və əməliyyatlara, o cümlədən yüklərin daşınması işlərinə mane olur**
- **Qar, sulu qar, yağış və qaranlıq təhlükə ehtimallarının zəif görünməsinə səbəb olur**
- **Soyuq hava şəraiti, əlavə geyim və s. əllə görülən işlərə mənfi təsir göstərir.**




Əlavə məlumat üçün **www.dropsonline.org** səhifəsinə keçin və ya DROPS İnzibati Qrupla əlaqə saxlayın **admin@dropsonline.org**

## BÜTÜN TAPŞIRIQLARDAN ƏVVƏL

- Mövcud hava şəraitini nəzərə alın və hava proqnozunu yoxlayın.
- Əşyaların düşmə riskini artıran güclü külək, dolu, sulu qar, qar, duman və zəif görünmə ehtimalını nəzərə alın.
- Əmin olun ki, əşyaların düşmə ehtimalına havanın təhlükəli təsiri tapşırıqla əlaqədar risk qiymətləndirilməsində qeyd edilib.
- Əsas keçidlər və avadanlığın üzərindəki sahələri yoxlayıb əmin olun ki, əşyaların düşmə ehtimalı yoxdur.
- Sahənizdə əvvəlki qışlarda əşyaların düşmə hallarını müzakirə edin və əmin olun ki, profilaktik nəzarət tədbirləri görülüb ki, onlar təkrar olunmasın.
- Əmin olun ki, iş sahəsi o cümlədən skafold körpü konstruksiyaları kifayət qədər işıqlandırılmışdır.
- Qarı və buzu tam təmizləməklə iş sahəsini hazırlayın.
- Nəqliyyat vasitələrinin, kranların, forkliftlərin və ağır mexanizmlərin pəncərələrindən, aynalarından, fənərlərindən buzu və qarı tam təmizləyin.
- İş sahəsindəki işarələrdən, xəbərdarlıqlardan, işıqlardan, barrikadalardan qarın və buzun təmizlənməsindən əmin olun.
- Hava yaxşılaşana qədər tapşırığı təxirə salmağı düşünün.

## ŞƏXSƏN GÖRÜLMƏLİ TƏDBİRLƏR

- Qalın geyinin – izolyasiya üçün üst-üstə bir neçə qat paltar geyinin (dar paltardan imtina edin çünki bu halda əl-ayağa qan axını azalır).
- Alətləri istifadə etməzdən və ya əllə yük qaldırmazdan əvvəl əllərinizi qızdırın, əllərinizi isti saxlayın, fasilələr edin və isti yerə gedin, termal əlcəklərdən / qatlardan istifadə edin, bayırda keçirilən vaxtı məhdudlaşdırın.
- Hava şəraitinə uyğun ayaqqabı geyinin – çəkmələr sukeçirməyən və izolyasiyalı olmalıdır.
- Hava şəraiti həddindən artıq soyuq ya yağışlı olanda qulaqlarınızı, üzünüzü, əllərinizi və ayaqlarınızı qoruyun.
- Davamlı olaraq ətraf mühitin şəraitinə fikir verin – hava tez pisləşə bilər - lazım gələrsə işi dayandırmağa və təhlükəsizliyi təmin etməyə hazır olun.

DROPS

# ƏŞYALARIN DÜŞMƏSİ
## HƏLƏ DƏ ZƏRƏR YETİRİR
## HƏLƏ DƏ ÖLDÜRÜR

# ÇAP EDİN
# VƏ BÜKÜN...

DROPS

**1-Cİ ADDIM**
**Çap edin**




**2-Cİ ADDIM**
**½ bükün**




**3-CÜ ADDIM**
**1/3 bükün**




**3-CÜ ADDIM**
**1/3 bükün**

